# İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artıraq

***Bu sahədə milli fəaliyyət planının icrası vəziyyətinin öyrənilməsi məqsədilə insan hüquqları üzrə müvəkkil (Ombudsman) ictimai dinləmə keçirmişdir***

Ölkə başçısının 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı»nın (MFP) icrası, təbliği və tətbiqi vəziyyətinin öyrənilməsi, həmçinin seçki hüququ ilə bağlı əhalinin maarifləndirilməsi məqsədilə ictimai dinləmə Qəbələ şəhərinin mərkəzində olan Qəbələ Mədəniyyət Mərkəzində təşkil olunmuşdur. 400 nəfərə yaxın ictimaiyyət nümayəndələrinin iştirak etdiyi ictimai dinləmədə, rayon icra hakimiyyətinin, inzibati orqanların, müəllim və tibb işçilərinin, dairə seçki komissiyalarının, qeyri-hökumət təşkilatlarının habelə milli azlıqların və icmaların nümayəndələrinin iştirakı təmin olunmuşdur.

Tədbiri açıq elan edən rayon icra hakimiyyəti başçısının müavini, ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Ətayə Osmanova insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində milli fəaliyyət planının vacibliyini qeyd edərək, bu sənədlə bağlı müvafiq tədbirlər planının qəbul olunduğunu diqqətə çatdırmış, vətəndaşların qəbulu və müraciətlərinə baxılması, onların həllinə yönəlmiş məqsədyönlü tədbirlər barədə ətraflı məlumat vermişdir. Sonra söz Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) Elmira Süleymanovaya verilmişdir.

Proqramın həyata keçirilməsi üzrə işçi qrupunun rəhbəri E. Süleymanova Azərbaycanın gözəl,



özünəməxsus güşəsi olan Qəbələ sakinlərini salamlamış, rayonda böyük sıçrayış, sürətlə aparılan geniş və əsaslı quruculuq işlərinin müasir yeniliklər olduğunu qeyd etmişdir. Natiq öz çıxışında ictimai dinləmələrin əhəmiyyətindən söz açmış, bu il əlamətdar hadisə kimi ümummilli lider Heydər Əliyevin 90 illiyinin qeyd edildiyi ölkəmizdə, o cümlədən etnik qrupların yaşadığı bu rayonda həyata keçirilən demokratik-hüquqi və sosial-iqtisadi islahatları, regionların sosial-iqtisadi inkişafı Proqramının uğurla həyata keçirildiyini müsbət dəyərləndirmiş, insan hüquq və azadlıqlarının, o cümlədən milli azlıqların hüquqlarının müdafiəsinin dövlətin qarşısında duran ən mühüm vəzifələrdən biri olduğunu diqqətə çatdırmışdır.Ombudsman "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın icrası vəziyyəti



və qarşıda duran vəzifələr" mövzusunda məruzə edərək, ulu öndər Heydər Əliyevin 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş və ölkəmizdə insan hüquqları sahəsində ilk proqramı olan «İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı» barədə məlumat vermişdir. Qeyd olunmuşdur ki, insan hüquqlarının təmini sahəsində tam yeni bir sənəd olan Milli Fəaliyyət Proqramı (MFP) insan hüquqlarının müdafiəsinin səmərəliliyinin artırılmasının ən prioritet istiqamətlərini normativ-hüquqi bazanın təkmilləşdirilməsi, əhalinin müxtəlif qruplarının hüquqlarının müdafiəsi, dövlət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi, insan hüquqları sahəsində tədris, elmi-analitik və maarifləndirmə tədbirləri, insan hüquqları sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlıq, Milli Fəaliyyət Proqramının həyata keçirilməsinin əlaqələndirilməsi, monitorinq və qiymətləndirilməsini müəyyən edir. Elmira Süleymanova 2012-ci ildə Milli Fəaliyyət Proqramının icrası sahəsində görülən işlərlə bağlı ətraflı məlumatları diqqətə çatdırmışdır.

2013-cü ilin Azərbaycanda Prezident seçkiləri ili olduğunu diqqətə çatdıran natiq seçki hüquqlarının prioritet məsələ olduğunu, seçki məcəlləsinə zəruri əlavə və dəyişikliklərin edildiyini, ölkə Prezidentinin bu sahədə müvafiq Sərəncamlarının əhəmiyyətini və bu sənədlərin təbliğinin zəruriliyini qeyd etmiş, əhalini seçkilərdə fəal iştirak etməyə, bu seçkilərin də demokratik, ədalətli, şəffaf, beynəlxalq standartlara uyğun şəkildə keçirilməsinə dəstək verməyə çağırmışdır. Müvəkkil eyni zamanda bəzi problemləri və çatışmazlıqları da qeyd etmiş, insan hüquqları sahəsində vəzifələrin birgə səylərlə uğurla həyata keçiriləcəyini vurğulamışdır. Elmira Süleymanova MFP-nin icrası, insan hüquqlarının müdafiəsi və seçki hüquqlarının, o cümlədən seçicilərin şəxsiyyət vəsiqəsi ilə təmini, həmçinin bələdiyyələrin işinin təkmilləşdirilməsi və digər zəruri məsələlərə toxunmuşdur.

İctimai dinləmədə rayon polis şöbəsinin rəisi polis polkovnik-leytenantı Ehtibar Abduyev, rayon prokurorunun böyük köməkçisi, ədliyyə müşaviri Sahib Abdurahmanov, QHT Təlim və Resurs Mərkəzinin direktoru Qalib Nəbiyev, Qırmızı Aypara Cəmiyyətinin rayon şöbəsinin rəhbəri Sədaqət Bayramova və başqaları çıxış edərək, rayonda (MFP) və insan hüquqları üzrə fəaliyyət, vətəndaşların yerlərdə qəbulu, məhkəmə-hüquq islahatları, məhkəmə qərarlarının icrasının təkmilləşdirilməsi, hüquqi maarifləndirmə və digər məsələlər barədə məlumat vermişlər və Milli Fəaliyyət Proqramının təbliği, icrasının səmərəliliyini artırmaq məqsədilə rəy və təkliflərini vermişlər.

Elmira Süleymanova tədbirin sonunda ayrı-ayrı vətəndaşların müraciətlərini, rəy və təkliflərini, şikayətlərini dinləmək üçün geniş vaxt ayırmışdır.

**Zahir KƏRİMOV,**
**Nadir ATAKİŞİYEV.**
**Fotolar**
**Səhrab UMUYEVİNDİR.**

***18 May—Beynəlxalq Muzeylər Günüdür***

# Muzey mənəvi sərvətimizdir

Respublikamızda bütün peşə bayramları həmişə qeyd olunur. 18 May—Beynəlxalq Muzeylər Günü də belə əlamətdar günlərdən biridir. Tarixi əhəmiyyətə malik olan bu bayram hər bir xalqın varlığını, tarixini qoruyub saxlanılmasında və təbliğində xüsusi rol oynayır. Hər il qeyd olunan bu tarix milli özünüdərk anlayışını daha dərindən qabarıq şəkildə göstərir.

Azərbaycanda da 18 May Beynəlxalq Muzeylər Günü böyük təntənə ilə qeyd olunur. 1946-cı ildən fəaliyyət göstərən Beynəlxalq Muzeylər Şurası (İKOM) yarandığı gündən indiyə kimi xalqların milliliyini, maddi, mənəvi sərvətlərinin qoruyub saxlanılmasında, bərpası sahəsində böyük işlər aparır. Hal-hazırda bu şuraya dünyanın səksənə qədər ölkəsi daxildir. Mənzil qərargahı Parisdə yerləşən Beynəlxalq Muzeylər Şurasının (İKOM) vəzifəsi muzeylərə yardım göstərmək, muzey işçilərinin mənafeyini müdafiə etmək, bugünkü zamanın tələblərinə uyğun muzeylər yaratmaqdır.

Ümumiyyətlə, muzeylər hər bir xalqın tarixini əks etdirir və onun güzgüsüdür. Bu güzgüdə tarixin hər üzü, səhifəsi özünü daha aydın biruzə verir. Milli mədəniyyət milli ideologiyamızın əsasını təşkil etdiyi kimi muzeylər də tariximizin qorunub saxlanılmasında, gələcək nəsillirə təbliğində böyük işlər görür. Maddi, mənəvi, sərvətimiz olan muzeylər xalqın gələcəyi naminə öhdəsinə düşən bütün vəzifələri səmərəli şəkildə uğurla yerinə yetirir. Hər il 18 mayın Beynəlxalq Muzeylər Günü kimi qeyd olunması ilə bərabər muzeyin bir mədəniyyət müəssisəsi kimi böyük əhəmiyyəti, əldə etdiyi nailiyyətləri, yerli və xarici qonaqlara göstərdiyi xidmətləri, ümumiyyətlə bu sahədəki müvəffəqiyyətləri ilə birlikdə bütün tarixi yola nəzər salınır.

Ümummilli liderimiz Heydər Əliyevin sərəncamı ilə 1980-cı il 15 may tarixindən fəaliyyət göstərən Qəbələ Rayon Tarix Diyarşünaslıq Muzeyi bu əlamətdar günü böyük təntənə ilə qeyd edir. Bildiyimiz kimi muzeyin ilk təyin olunan direktoru Xalis Məmmədov bu sahədə apardığı işlərin nəticəsi olaraq Əməkdar Mədəniyyət İşçisi adına layiq görülmüşdür. Bir mədəniyyət ocağı kimi, fəaliyyətə başlayan muzeyimiz respublikamızın aparıcı muzeyləri, AMEA-nın elmi tədqiqat müəssisələri ilə sıx əməkdaşlıq edir. Bildiyimiz kimi muzeyimiz tarixi baxımdan öz zənginliyinə, qədimliyinə görə respublikamızda mühüm yer tutur. Hal-hazırda muzeyimizdə on dörd minə yaxın tarixi eksponat qorunub saxlanılır. Hər bir eksponatın özünəməxsus yaşı, tarixi vardır. Eramızdan əvvəl II-I əsrlərdən ta bu günə qədər olan tarixi özündə əks etdirən bu nümunələr Qəbələnin qədim, ulu kesmişə malik olmasını bir daha təsdiq edir. Qəbələ Rayon Tarix Diyarşünaslıq Muzeyi tarixi və elmi əhəmiyyətə malik eksponatların nümayişini və mühafizəsini təmin edir. Arxeoloji, etnoqrafik, nümiz-matik materiallar, xalq sənəti nümunələri, qədim əlyazma və çap kitabları diqqəti xüsusilə cəlb etdiyinə görə buraya gələn tamaşaçıların çayı-hesabı yoxdur. Muzeyimizə gələn bütün tamaşaçılar eksponatlar vasitəsilə tarixi keçmişimizi sənətkarlarımızı, qədim adət və ənənələrimizi daha dərindən öyrənirlər. 2500 illik bir dövru özündə əks etdirən, əhatə edən bu tarixi abidəmiz Tarix-Diyarşünaslıq muzeyi həqiqətən bir sənət məbədgahıdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2005-ci il 18 avqust tarixində muzeyimizdə qonaq olarkən muzeyin rəy kitabına öz ürək sözlərini belə yazmışdır: «Biz öz tarixi və mədəni irsimizə böyük diqqətllə yanaşırıq. Biz öz tariximizi sevməliyik, bunu dərindən öyrənməliyik və beynəlxalq ictimaiyyətə təqdim etməliyik. Qəbələ Tarix-Diyarşünaslıq muzeyi bu vəzifələri uğurla yerinə yetirir». Möhtərəm Prezidentimizin bu sözlərindən bəhrələnərək demək istəyirəm ki, muzeyimiz həqiqətən də mədəni irsimizi, qəddim tariximizi gələcək nəsillərə və dünyaya təbliğ olunmasında səmərəli işlər görür. Hamımıza yaxşı məlumdur ki, Qəbələ turizm şəhəri kimi Azərbaycanda özünəməxsus yer tutan bölgələrdən biridir.

**(Ardı 7-ci səhifədə).**